# Azərbaycanlı gənc ifaçı Sankt-Peterburqda festivalda çıxış edib




**Sankt-Peterburqda "Rusiya - mənim tarixim" adlı tarixi parkda Slavyan xalqları mədəniyyəti festivalı keçirilib.**

Tədbir Slavyan yazısı və mədəniyyəti gününə həsr olunub. Əsas səhnədə şəhərin milli-mədəni birlikləri və Peterburq sənətçilərinin konserti keçirilib.

Tədbirdə Sankt-Peterburq Azərbaycan Milli-Mədəni Muxtariyyətinin adından iştirakçıları beynəlxalq müsabiqələrin laureatı, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının məktəb-studiyasının məzunu, hazırda Sankt-Peterburq Dövlət Konservatoriyasının tələbəsi Teymur Kazımov təbrik edib. O, çıxışı zamanı V. Solovyov-Sedoyun "Bizim şəhər" adlı mahnısını səsləndirib. Qonaqlar ustad dərslərində də iştirak ediblər. Slavyan ənənələri üslubunda lentlərdən unikal baş bəzəyi və qədim slavyan uğur və rifah talismanı sayılan "Quşcuğaz" adlı parçadan kukla hazırlayıblar.

Tarixi parkda həmçinin sərgi açılıb. Burada slavyan xalqının ənənəvi geyimləri, oyma sənət nümunələri və məişət əşyaları nümayiş olunub.

Tədbirdə iştirakçılar slavyan mətbəxinə məxsus yeməklərə qonaq edilib.

Festival Sankt-Peterburq Şəhəri Millətlərarası Münasibətlər Komitəsi və Sankt-Peterburq Millətlər Evi tərəfindən təşkil olunub.

Azərbaycan.- 2025.- 11 iyun (№118).- S.11.